# Xorvatiyada ÜƏMT-nin Yay Məktəbi keçiriləcək

Xorvatiyanın Əqli Mülkiyyət üzrə Dövlət İdarəsi, Ümumdünya Əqli Mülkiyyət Akademiyası və Dubrovnik Universiteti ilə birgə əməkdaşlıqda əqli mülkiyyət (ƏM) üzrə IX Yay Məktəbini təşkil edir.

Yay Məktəbi cari ilin 26 iyun-7 iyul tarixlərində Dubrovnik şəhərində təşkil olunacaqdır.

Yuxarı kurs tələbələri və gənc peşəkarlardan ibarət 30 nəfərlik kontingentin iştirakı nəzərdə tutulan Yay Məktəbi ƏM və onun iqtisadi, sosial, mədəni və texnoloji inkişafdakı rolu haqqında öyrənmək üçün unikal fürsətdir.

Yay Məktəbində iştirak etmək arzusunda olanlar ÜƏMT-nin veb səhifəsində (https://welc.wipo.int/acc/index.jsf?page=courseCatalog.xhtml&lang=en&cc=WSSHR2023#plus_WSSHR2023) qeydiyyatdan keçə bilərlər.